

# Sözün və hökmün gücünü həyat yolunda cəmləşdirən şəxsiyyət

**Milli ədəbiyyat tariximizin inkişafına, həm siyasi hakimiyyətdə təmsil olunan, həm də bədii yaradıcılıqla məşğul olmuş şəxsiyyətlər diqqəti xüsusilə cəlb edir. Onlar orta əsrlərdə Şərqdə hökmdar olmaqla yanaşı, poetik irs yaratmaq bacarığı olmalı ədəbi-estetik ruhu formalaşdırmaqda mühüm rol oynayıblar. Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Şah İsmayıl Xətai kimi sənətkarların adları silinməz iz qoyub.**



Qazi Bürhanəddinin yaradıcılığı İzzəddin Həsənoğlu və Şeyx Səfiəddin Ərdəbili ənənəsinin davam etdirərək Azərbaycan türkcəsinin klassik poeziya dili kimi formalaşmasında mühüm mərhələ hesab olunur. O, Azərbaycan türkcəsində ilk dəfə divan tərtib edən sənətkardır. Ərəb və fars dillərinə mükəmməl yiyələnməsinə, klassik şərq poeziyasının zəngin ənənələrini dərindən mənimsənməsinə baxmayaraq, ana dilində şeir yazmağı öz yaradıcılığında istiqamət kimi qəbul etmişdir. O dövrdə fars və ərəb dilləri ədəbiyyatda hakim mövqe tuturdu deyə xalqın gündəlik danışıq dili olan Azərbaycan türkcəsində şeir yazmaq mədəni müstəqilliyin və dilə olan bağlılığın ifadəsi idi. Sənətkarın divan şəklində tərtib olunmuş poetik külliyyatı tam halda günümüzə qədər gəlib çatmışdır. Divanının yeganə əlyazma nüsxəsinin Londonda Britaniya Muzeyində qorunub saxlanılması, bu əsərin həm Azərbaycan, həm də ümumtürk ədəbi irsi üçün böyük əhəmiyyət daşıdığını sübut edir.

Qazi Əhməd Şəmsəddin Məhəmməd oğlu 1344-cü ildə Anadolu torpaqlarının qədim mədəniyyət mərkəzlərindən biri olan Kayseri (Qeysəriyyə) şəhərində anadan olmuşdur. Soy-kökü qədim türk-oğuz tayfaları arasında sayılıb-seçilən Salur elinə mənsubdur. Həyatın ilk illərində ən ağır sınağından keçmişdir. Anasını erkən yaşda itirən Əhmədin uşaqlıq dünyasına qaranlıq kölgə düşmüşdür. 1356-cı ildə atası ilə birlikdə Suriya torpaqlarına - elm və mədəniyyətin qədim beşiyi olan Dəməşqə səfər edir. Lakin orada uzun müddət qalmır, bir qədər sonra ailəsi ilə birlikdə yenidən Kayseriyə dönür. Geri qayıtdıqdan sonra atası sarayda qazı vəzifəsinə təyin olunur. Atasının qazılıq fəaliyyəti, ictimai mühit və dini-elmi çevrə gənc Əhmədin dünyagörüşünün formalaşmasına güclü təsir göstərir. Zəka və öyrənməyə olan meyli sayəsində dövrünün ən savadlı şəxslərindən biri kimi tanınan Qütbəddin Rəzinin tələbəsi olub. Təhsilini daha da genişləndirmək məqsədilə əvvəl Misirə, daha sonra yenidən Dəməşqə üz tutub. Burada ilahiyyat, tibb, nücum, fəlsəfə, riyaziyyat və başqa bir sıra elmləri dərindən öyrənərək çoxşaxəli biliklərə yiyələnib. Elmə olan bağlılığı onun şəxsiyyətini zənginləşdirir, eyni zamanda dövrünün seçilən simalarından birinə çevirib.

Kayseri ətrafında yerləşən Ərətna bəyliyinin hökmdarı Məhəmmədin qızı ilə evliliyi əlaqələr baxımından əhəmiyyətli mərhələ sayılır. Dini biliyi, hüquqi təfəkkürü və ədalətli mövqeyi ilə ictimaiyyət arasında böyük etimad qazanır. Bəyliyin hökmdarı vəfat etdikdən sonra onun taxtına oğlu Əli keçir. Əli azyaşlı olduğu üçün dövlətin bütün işlərini Qazi Bürhanəddin yerinə yetirirdi. Bu illərdə ölkədə baş verən ən böyük hadisə türkmən-monqol və qaramanlıların Konya və Sivas şəhərlərini zəbt etməsi idi. Qazi Bürhanəddin bu döyüşlərdə xüsusi şücaət göstərir və 1378-ci ildə vəzir təyin olunub. 2 ildən sonra Əli də vəfat edir və Bürhanəddin onun körpə övladının atabəyi olur. Beləliklə, hakimiyyət onun əlinə keçir. 1381-ci ildə Qazi Bürhanəddin hökmdar kimi taxta çıxaraq öz adını daşıyan yeni bir dövlətin əsasını qoyur və sultan elan edilir. Bundan sonra o bütün həyatını fasiləsiz yürüş və döyüşlərə, daxili və xarici düşmənlərə qarşı mübarizəyə həsr edir. Bir-biri ilə daim çəkişən qaramanlı, osmanlı, türkmən tayfaları arasındakı düşmənçiliyi aradan qaldırmaq və ölkəsində nizam-intizamı möhkəmləndirmək üçün əlindən gələni edir. Şairin həyat yolu yalnız elmi təhsil və inzibati fəaliyyətlə məhdudlaşmır. Onun düşüncəsində və fəaliyyətində din, elm, ədəbiyyat və ictimai məsuliyyət vəhdət təşkil edir. Həm zehni hazırlığı, həm də mənəvi dərinliyi onu dövrünün görkəmli ziyalısı, böyük ədib - Qazi Bürhanəddin kimi tanınacaq şəxsiyyət kimi formalaşdırır.

Qazi Bürhanəddin həm hökmdar, həm sərkərdə, həm də uzaqgörən diplomat kimi öz dövlətini qorumaq yolunda uğurlu planlar qurur. Anadolunun şimal-şərqində yerləşən və strateji baxımdan son dərəcə həssas mövqedə duran Sivas mərkəzli dövləti Teymur təhlükəsindən xilas etmək üçün müxtəlif siyasi ittifaqlara üz tutur. Məmlük sultanı Bərquqla əlaqələ yaradır, onunla ittifaqa girərək birgə müqavimət strategiyası hazırlayır. Bir ara Osmanlı sultanı I Bəyazidlə münasibətləri kəskinləşsə də, nəticədə daha böyük təhlükənin, Teymur yürüşlərinin qarşısını almaq məqsədilə Osmanlı ilə əlaqələri normallaşdırmağa çalışır.

1394-cü ildə dünya siyasətinin gərgin düyünlərindən biri açılır: Məmlük Sultanı Bərquq, Osmanlı hökmdarı I Bəyazid və Qızıl Orda xanı Toxtamışın iştirakı ilə yaranan genişmiqyaslı siyasi-müdafiə ittifaqı Qazi Bürhanəddinin dövlətini Teymurun dağıdıcı yürüşlərindən xilas etməyə imkan yaradır. Bu, tarixi və hərbi zəfərin təntənəsinə çevrilir. Siyasi cəbhədə soyuqqanlı və tədbirli, döyüş meydanında qorxusuz və əzmkar olan hökmdarın iç dünyası da bir o qədər dərin və təsirli idi. Qazi Bürhanəddin qəlbindəki söz aləmini də tarixə miras qoyanlardan olub. Şeirlərində taleyin hökmünə boyun əyən, insanın acizliyini qəbul edən, lakin ruhən sınmayan təvəkkül adamı görünür. Hökmdar-şairin yazdığı tuyuqlardan birində fəlsəfi mövqe açıq şəkildə ifadə olunur. O, insan iradəsi ilə Tanrı təqdirinin sərhədlərini eyni misrada birləşdirərək, həm qəhrəmanlıq ruhunu, həm də qismətə təslim olmağın sakit hikmətini oxucuya ötürür.

*Əzəldə Haqq nə yazmış isə bolur,*
*Göz nəni ki, görəcək isə görür.*
*İki aləmdə Haqqa sığınmışuz,*
*Toxtamış nə ola, ya axsax Teymur.*

Bürhanəddin ölkəsini Teymurun işğalından xilas etdikdən ölkə iqtisadi və hərbi cəhətdən möhkəmlənir. Sultan Bürhanəddin ticarətin, maarif və mədəniyyətin inkişafına, quruculuq işlərinə xüsusi diqqət yetirir. Yeni-yeni mədrəsələr, karvansaralar tikdirir və körpülər saldırır. Hakimiyyəti dövründə ədəbi yaradıcılığa da vaxt ayırır. Din və təsəvvüflə bağlı şeirlər yazır. Sərdar şairin ana dilində bir divanı, ərəbcə iki əsəri günümüzə gəlib çıxıb. Qazi Bürhanəddinin fəlsəfi konsepsiyası "Tərci üt-tövzih" ("İzahların təkrarı") və "İksir-üs səadət fi əsrar-ül ibadət" ("Səadət iksiri ibadət əsrarında") adlı ərəbcə yazdığı risalələrdə əksini tapıb. Bu risalələrdə onun sufi və hürufi fəlsəfəsindən geniş bəhrələndiyi aydın görünür.

Qazi Bürhanəddin kimi qüdrətli söz ustadının Azərbaycan türkcəsində yaratdığı "Divan" mədəniyyətin və milli təfəkkürün abidəsidir. Müəllifin sağlığında qələmə aldığı bu nadir əlyazma zəmanəsinin mahir xəttatlarından sayılan Xəlil ibn Əhmədin əli ilə köçürülüb. Maraqlıdır ki, bu qiymətli divan nüsxəsi 1890-cı ildə İngiltərənin İstanbuldakı səfirliyində çalışan nümayəndə tərəfindən Osmanlı paytaxtından Avropaya aparılıb. Beləliklə, bir türk-müsəlman klassikinin poetik xəzinəsi illərlə yad ölkənin vitrini arxasında yaşasa da, mənsub olduğu xalqın yaddaşından heç vaxt silinməyib.

Bu elmi-mədəni mirasa ikinci nəfəs verən isə Azərbaycan ədəbiyyatşünaslığının tanınmış siması, AMEA-nın müxbir üzvü mərhum Əliyar Səfərli olub. Onun böyük zəhməti nəticəsində Qazi Bürhanəddinin "Divan"ı 1988-ci ildə ilk dəfə kitab halında nəşr edilib və geniş oxucu kütləsinə çatdırılıb.

Qazi Bürhanəddin yaradıcılığı haqqında fikir söyləyənlər arasında rus şərqşünaslıq məktəbinin görkəmli nümayəndələrindən biri olan akademik Aqafengel Bürhanəddinin "Divan"ını diqqətlə təhlil edərək yazırdı: "Bürhanəddinin 'Divan'ı qeyri-bərabər həcmli iki hissədən ibarətdir. İlk və böyük bölüm qəzəllərdən ibarətdir. İkinci və nisbətən kiçik hissədə isə hər şeydən əvvəl iyirmiyə qədər rübaisini qeyd etməliyik. Bunlar türkcə yazılmış ilk "rübaiyyat"dır…". Krımskinin bu fikirləri Qazi Bürhanəddinin türk dilinin poetik imkanlarını genişləndirmiş yaradıcı olduğunu göstərir. Onun qəzəlləri lirizmlə, rübailəri isə hikmət və fəlsəfi dərinliklə seçilir. Hər iki janrda ortaya qoyduğu söz estetikası, bütün türk poeziyasının inkişaf xəttində əlamətdar yer tutur.

Şairin məhəbbət lirikası öz bənzərsizliyi ilə bir çox türkdilli şairlərə örnək olub.

*Eşq əhli yari yolına məstanə gərəkdür,*
*Sevdüginün eşigini yastana gərəkdür.*
*Canənə içün oynaya ol canını şöylə,*
*Ki tənə ura Rüstəmi-dəstana gərəkdür.*

İgidlik, bahadırlıq motivləri şairin poeziyasında çox qabarıqdır. Həyatı döyüşlərdə keçən şair ərləri, igidləri döyüş meydanlarına çağırır, haqq-ədalət uğrunda vuruşlara səsləyirdi.

Azərbaycan ədəbiyyatında Qazi Bürhanəddinin bədii irsinin öyrənilməsi və təbliği sahəsində ilk addımları M.F.Köprülü atmış, sonralar isə İ.Hikmət bu işi davam etdirmişdir. M.F.Köprülü "Azəri ədəbiyyatına aid tədqiqlər" əsərində şairin yaradıcılığından bəhs etsə də, İ.Hikmət onun haqqında yazdığı oçerkdə Qazi Bürhanəddinin həyatı, yaradıcılığı, şeirlərinin mövzu və dil xüsusiyyətləri təhlil edilmişdir. Azərbaycan ədəbiyyatında tuyuq janrının inkişafında onun əvəzsiz rolu xüsusi vurğulanmışdır. XIV əsrin sonlarında Anadolu torpaqlarında mürəkkəb vəziyyət hökm sürürdü. Öz dövlətini qorumağa çalışan Bürhanəddin 1398-ci ildə Qara Yuluq Osmanla qarşıdurmaya girir. Münaqişənin əsas səbəbi isə Osman tərəfindən razılaşdırılmış köç şərtlərinin pozulması idi. Qara Yuluq Osman diplomatik danışıqları bir kənara ataraq qəfil hücumla Bürhanəddinin düşərgəsini darmadağın edir. Həmin anlarda Bürhanəddin əsir düşür, ona edam qərarı verilir. Oğlu Zeynəl atasının intiqamını almaq və dövləti qorumaq üçün Osmanlı sultanı I Bəyazidə müraciət ünvanlayır. Bəyazid bu çağırışa cavab olaraq böyük oğlunu 40 minlik bir ordu ilə Anadoluya göndərir və nəticədə Qazi Bürhanəddinin qurduğu dövlətin əraziləri Osmanlı nəzarətinə keçir. Bürhanəddin 1398-ci ilin iyul-avqust aylarında edam edilir. Onun dəfn yeri ilə bağlı məlumatlar az olsa da, əksər tədqiqatçılar Sivasda yerləşən və hazırda "Qazi Bürhanəddin Türbəsi" kimi tanınan məkanda olduğunu qeyd edirlər. Qəbir daşlarının bir hissəsi Göy Mədrəsədə qorunur.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**